Azərbaycan Respublikası adından

**QƏRARDAD**

Bakı şəhəri İş № 2(102)-5366/2021 12.10.2021

**ALİ MƏHKƏMƏ**

**QƏRARDAD**

işin icraata qəbulundan imtina edilməsi barədə

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının hakimi Şəfiyev İspəndiyar Əsəd oğlu,

Gəncə Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 2(104)-2145/2021 nömrəli iş üzrə 04 may 2021-ci il tarixli qətnaməsindən Cavabdeh tərəfindən verilmiş kassasiya şikayətini nəzərdən keçirərək

**MÜƏYYƏN ETDİM:**

Gəncə Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 2(104)-2145/2021 nömrəli iş üzrə 04 may 2021-ci il tarixli qətnaməsindən Cavabdeh tərəfindən kassasiya şikayəti verilmişdir.

Kassasiya şikayəti işin hallarının sübut olunmaması, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmaması və qətnamədə ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmaması ilə əsaslandırılmışdır. Şikayətdə maddi və prosessual hüquq normalarının pozulmasının, yaxud düzgün tətbiq edilməməsinin nədən ibarət olması ümumiyyətlə göstərilməmişdir.

Halbuki, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə (bundan sonra – MPM) əsasən kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir (407.2). Kassasiya şikayətində maddi və prosessual hüquq normalarının pozulmasının, yaxud düzgün tətbiq edilməməsinin nədən ibarət olması göstərilməmişsə kassasiya şikayəti qaytarılır (408.1.5). Bu Məcəllənin 408.1.1. və 408.1.3-408.1.5-ci maddələrində nəzərdə tutulmuş hallarda kassasiya şikayəti apelyasiya instansiyası məhkəməsi tərəfindən qaytarılır (408.2).

Mövcud hal mübahisələndirilən məhkəmə aktı üzrə kassatorun dəlillərini müəyyən etməyə və bununla da kassasiya icraatının həyata keçirilməsinə imkan vermir.

Ona görə də cavabdehin kassasiya şikayətinin icraata qəbul edilməsindən imtina edilməli və iş kassasiya şikayətinin geri qaytarılması məsələsinə baxılması üçün apelyasiya instansiyası məhkəməsinə göndərilməlidir.

Qeyd olunanlara əsasən və MPM-nin 408.1.5 və 408.2-ci maddələrini rəhbər tutaraq

**QƏRARA ALDİM:**

Gəncə Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 2(104)-2145/2021 nömrəli iş üzrə 04 may 2021-ci il tarixli qətnaməsindən Cavabdeh tərəfindən verilmiş kassasiya

şikayətinin icraata qəbul edilməsindən imtina edilsin və iş kassasiya şikayətinin geri qaytarılması məsələsinə baxılması üçün Gəncə Apellyasiya Məhkəməsinə göndərilsin.

**Ali Məhkəmənin hakimi** **İspəndiyar Şəfiyev**